

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

23 aprel 2020-ci il
Cümə axşamı

№ 13 (3478)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Elman Sirac oğlu Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı aprelin 17-də Azərbaycan Respublikasında mülki aviasiyanın inkişafında xüsusi xidmətlərinə görə Arif Əhməd oğlu Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva respublikamızın xristian icmasını Pasxa bayramı münasibətilə təbrik ediblər.***

***Aprelin 20-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkələrimizdə həyata keçirilən tədbirlər və görüləcək işlərlə bağlı məsələlər müzakirə edilib.***

## İNAM VƏ ETİMAD ÜNVANI

Keçirilən sorğular xalqımızın mütləq əksəriyyətinin Prezident İlham Əliyevə etibar etdiyini və onun 17 illik bənzərsiz fəaliyyətinin ümumxalq sevgisini qazandığını göstərir:

- 94,7 faiz Prezidentə etibar edir;
- 93 faiz koronavirusla bağlı həyata keçirilən tədbirləri müsbət dəyərləndirir;
- 92,8 faiz ictimai qınağa Prezidentin göstərdiyi reaksiya ilə həmrəydir;
- 91 faiz Prezidentin gənc kadrları vəzifəyə təyin etməsini alqışlayır;
- 89,2 faiz sağlamlığın qorunmasında dövlət siyasətini təqdir edir;
- 87,8 faiz sosial-iqtisadi islahatları alqışlayır;
- 87,8 faiz problemlə qarşılaşdığı zaman dövlətin dəstək göstərəcəyinə inanır;
- 85,6 faiz karantin məhdudiyyətlərinin tətbiq edilməsinə müsbət yanaşır;
- 84 faiz kütləvi tədbirlərin qadağan edilməsini dəstəkləyir;
- 82,4 faiz tədrisin dayandırılmasına müsbət yanaşır.

Bu, Azərbaycan reallığının əks etdirən sosioloji sorğunun nəticəsidir. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən açıqlanan sorğunun nəticələrindən də göründüyü kimi, ölkə əhalisinin mütləq əksəriyyəti Prezident İlham Əliyevin fəaliyyətini, onun qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatları, daxili və xarici diplomatiyanı, o cümlədən dünyanı bürüyən koronavirus pandemiyası dövründə gördüyü qabaqlayıcı tədbirləri tam dəstəkləyir.

## PREZİDENT İLHAM ƏLİYEV "AZƏRENERJİ" ASC-nin YENİDƏN QURULAN BAŞ İDARƏETMƏ, ELM, TƏDRİS VƏ LABORATORİYA KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq, müasir memarlıq üslubunda, yüksək səviyyədə yenidən qurulub. Ətrafda abadlıq işləri görülüb, yaşıllıq sahələri salınıb.

Dövlətimizin başçısına binada fəaliyyət göstərəcək Baş İdarəetmə Mərkəzi barədə məlumat verilib. Bu mərkəz vasitəsilə enerjisistemin avtomatik idarəedilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi nəzərdə tutulur. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən



həyata keçirilir. Hazırda burada müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi qurulur. Yeni sistem əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 80 yarımstansiyanı əhatə edəcək. Yeni SCADA layihəsinin ilin sonunda tam başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş İdarə binasının yenidənqurma layihəsi barədə də məlumat verilib.

Sonra Prezident İlham Əliyev Cəmiyyətin bir qrup əməkdaşı ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

## PREZİDENT İLHAM ƏLİYEV ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ VƏ İQTİSADİYYAT NAZİRLƏRİNİN İŞTİRAKI İLƏ VİDEOBAĞLANTI FORMATINDA İCLAS KEÇİRİB

Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib.

Dövlətimizin başçısı iclasda çıxış edib.

O, Azərbaycanda vəziyyətin nəzarət altında olduğunu, tədbirlərin tələblərə uyğun şəkildə görülməyinin vacibliyini bildirib. Çıxışda insanların sağlamlığının, həyat və sosial müdafiəsinin təmininin prioritet məsələ kimi qarşıya qoyulduğu, bu şəraitdə iqtisadi sahəyə daha çox diqqət verilməsinin vacibliyi önə çəkilib. Prezident deyib ki, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilmərik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Azərbaycan Prezidenti bu bələnın bütün dünyanı böyük sınaq qarşısında qoyduğunu, bu günə qədər dünyada 140 mindən çox insanın həyatını itirdiyini qeyd edib. ***"Sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni, daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur. Bunun başlıca səbəbi görülmüş tədbirlərdir".***

Mütəxəssislərin verdiyi rəyə əsasən karantin rejiminin uzadılmasının düzgün hesab edən dövlət başçısı, belə olduğu təqdirdə, müsbət dinamikanın nəzərə çarpacağına inandığını bildirib.

Dövlətimizin başçısı 200 min insanın dövlətdən 190 manat yardım alacağını xüsusilə vurğulayıb: "Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni, 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür".

Sonra Əhalinin Sosial Müdafiəsi naziri Sahib Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək verilən tapşırıqları qısa müddət ərzində yerinə yetirəcəklərini bildiriblər.

Qlobal böhran dövründə də Azərbaycanın iqtisadi inkişafı istiqamətində önəmli addımlar atılıb.

- ümumi daxili məhsul 1,1 faiz artıb;
- qeyri-neft sektoru 3 faiz çoxalıb;
- qeyri-neft sənaye sektoru 23 faiz artıb;
- informasiya-kommunikasiya texnologiyaları 18 faiz yüksəlib;
- dağ-mədən sənayesi 12 faiz çoxalıb;
- kənd təsərrüfatı 3,7 faiz artıb;
- elektrik enerjisi, qaz-buxar istehsalı 17 faiz çoxalıb;
- yük daşımaları 7,2 faiz artıb;

olaraq dünya dövlətlərini, o cümlədən Azərbaycanı tədqiq olunmamış təhlükə ilə üz-üzə qoyduğu bir dövrdə bu nəticələri prinsip etibarilə müsbət qiymətləndirmək olar.

Çünki son 3 ayda həyata keçirilən siyasi-iqtisadi islahatlar sayəsində qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılıb.

-Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə dünyada 44-cü yerdədir;

## BU İL DƏ DƏRİN VƏ GENİŞ İSLAHATLAR İLİ OLACAQ

- vergi və gömrük orqanlarından əlavə daxilolma 310 milyon manatdır;
- inflyasiya 3 faiz səviyyəsindədir;
- orta aylıq əməkhaqqı 28 faiz, orta pensiya 27 faiz artıb;
- orta pensiya 295 manat, yaşa görə pensiya isə 330 manata yaxındır;
- bank sektoruna 627 milyon manat səviyyəsində dəstək verilib.

Bu, ölkəmizin birinci rübdəki sosial-iqtisadi göstəriciləridir. Koronavirusun yüksək sürətlə yayılaraq pandemiyaya çevrilməsi istisnasız

-7 min köçkün, 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək;

-Struktur islahatları davam etdiriləcək.

Qlobal böhran Azərbaycanı tutduğu yoldan döndərə bilməz. Çünki son 3 ayda həyata keçirilən siyasi-iqtisadi islahatlar sayəsində qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılıb.

# GÜCLÜYÜK, SƏBİRLİYİK VƏ QALİB GƏLƏCƏYİK

**Gündəmin mövzusu koronavirusdur. Praqnozlar ondan qurtulmağın elə də asan olmayacağını gözlər önünə sərir. Supergüclər tükəndiklərini etiraf edirlər. Pandemiya beyinləri köləyə çevirsə də yaşamaq uğrunda insanlığın mübarizəsi davam edir. Yaşananlar onu göstərdi ki, bütün inkişaflar sonda özünüməhvə gətirib çıxardır və sonuncu səmavi kitabda yazılanlar təsdiqini tapır.**




Bəlanın sərhədlərimizə yaxınlaşdığı ilk gündən onun sürətlə yayılma tendensiyasını nəzərə alan möhtərəm Prezidentimizin çox böyük uzaqgörənliklə mühüm və düşünülmüş qərarlar qəbul etməsi bu gün faciə ilə üzbəüz qalan, səhiyyəsi aciz duruma düşən inkişaf etmiş dövlətlərin aqibəti ilə üzləşməkdən bizi xilas etdi. Əsl vətəndaşlıq mövqeyi nümayiş etdirən dövlət başçımızın siyasətinin bünövrəsində xalqımızı hər bir çətinlikdən qorumağın durduğunun bir daha şahidi olduq. **Sitat:** ***“Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Deyə bilərəm ki, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu, bir daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk. Təbii ki, ilk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər - biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk”…***

Hər gün yüzlərlə insan ölümünə şahid olduğumuz bir zamanda bir güllə belə atılmadan dünyanı saran səssiz ölümün gəlişini nə zənginlər, nə də yoxsullar duyur. Eqosu atomlardan qorxulu olan, dünyanı yenidən bölmək üçün milyonlarla insanın ölümünə bir göz qırpımında qol çəkmək üçün fürsət gözləyənlərin, “yerin dərdini” kosmosa daşıyanların idarəolunmaz və qarşısı alınmaz gücə çevrilən kiçik bir zərrəcikdən sarsılmaları göz önündədir.




Dünya xəritəsində kiçik də olsa öz yeri olan, bir milyondan çox qaçqın və məcburi köçkünün problemi ilə yüklənən, hələ də torpaqlarının 20 faizindən çoxunun işğal edildiyi bir ölkənin belə bir çətin dönəmdə duruş gətirməsi, vətəndaşlarının həyatını qoruması yaxşı bilirik ki, dost və ya düşmən masalarında müzakirə mövzusudur.

Təkcə özümüzü deyil, dünyanı qurtarmaq üçün çabalarımız, daha çətin durumda olan ölkələrə etdiyimiz yardımlar tolerant və multikultural dəyərləri anayasamızdan tutmuş, qəbul edilən qərarlarda, verilən fərman və sərəncamlarda önə çəkməyimiz bir xalq olaraq humanistliyimizin, həm də qədim dövlətçilik ənənələrimizin təzahürüdür.

Cənab Prezidentin tapşırığı ilə dövlətin bütün qurumları səfərbər olunub. Azərbaycan Polisi isə həmişə olduğu kimi mübarizənin ön sıralarındadır. Və bu gün onun üzərinə düşən məsuliyyətin coğrafiyası bütün Azərbaycanı əhatə edir. Paytaxtdan tutmuş, ən ucqarlarda tətbiq olunan karantin rejiminin "keşiyində" ayıq-sayıq dayanıb Azərbaycan Polisi. Belə ağır və çətin günləri 1988-ci il hadisələrindən sonra da yaşamışdıq və bədəlini də çox ağır ödədik. 1991-ci ildə müstəqilliyimizə gedən yollara tikanlı məftillər çəkmək niyyətində olanları xalqımızın əzmi, iradəsi və birliyi darmadağın etdi. Siyasi oyunların qurbanı isə torpaqlarımız oldu. Həmin dövrdə də ölkənin hələ olmayan ordusunun-Vətəni qorumaq üçün üçrəngli bayrağın altında and içib döyüşə yollanan oğulların önündə Azərbaycan Polisi gedirdi və bu təkzibolunmaz fakt, unudulmaz tarixdir.

Yaşanan pandemiya bizə həmin dövrü xatırladır.




Yenə də Dövlət-Xalq, Vətəndaş-Polis həmrəyliyi ilə yaşam uğrunda mücadilə edirik, daha doğrusu, mübarizə aparırıq. Qarşıya çıxan çətinlikləri dəf etmək, insanların ehtiyacını ödəmək üçün dövlət bütün lazımi tədbirləri görür.

Ancaq təəssüflər olsun ki, bu günlərdə dövlətin siyasətinə, xüsusən də onun bel sütunu olan Azərbaycan Polisinə sərhədlərimizdən o üzdə və içimizdə kök salmış “beşinci kolon”çular tərəfindən çamur atanlara da şahid oluruq.

Güclü Azərbaycanın varlığı və onun regionda böyük güclərin hesablaşdığı söz sahibinə çevrilməsi, əlbəttə ki, siyasi xətti dağıdıcılıq və qəsbkarlıq olanları narahat etməyə bilməz. Bir həqiqət var ki, Azərbaycan adlı gəminin göyərtəsində 10 milyonluq bir xalq zaman-zaman kiçilmiş xəritəsini bərpa etmək, sərhədlərə sığmayan sərhəddini yenidən müəyyənləşdirmək üçün möhtərəm Prezidentimizin rəhbərliyi ilə inamla üzü sabaha yol gedir. Gücün sözdə olmadığını, işdə, fikirdə və əməldə olduğunu görmək istəyənlər Azərbaycan həqiqətlərinə öz aynalarından deyil, min illərə şahidlik edən, odlu ürəyi dünyanı isidən, ayna suları gələcəyimizə işıq saçan Xəzərimizdən baxsalar kifayətdir.

*Hafiz Təmirov,*
*fotolar Zeyni Hüseynovundur*

# SINAQLAR HƏLƏ QARŞIDADIR

Koronavirus infeksiyası ilə mübarizə tədbirləri ümummilli hərəkata çevrilib. Mübarizənin ön sıralarında isə polislər və həkimlərdir. Bu çətin günlərdə öz şagirdlərini, tələbələrini auditoriyaya, sinif otağına yığa bilməsə də onları texnologiyanın imkanlarından istifadə edərək




bir kompüter arxasına yığmağı bacaran və daha böyük həvəslə gəncliyimizi gələcəyə hazırlayan müəllimlərimizin də adını fədakarlarla bir sırada çəkməliyik…

Bu gün karantin rejimi dövründə respublikamızın ən böyük xüsusi təyinatlı təhsil müəssisələrindən olan Daxili İşlər Nazirliyinin Polis Akademiyasında görülən işlər barəsində məlumat almaq üçün Akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyevə müraciət etdik. Tədrisin bugünkü vəziyyəti ilə bağlı suallarımızı cavablandıran N.Əliyev bildirdi ki, auditoriyalar şəbəkə vasitəsilə biri-biri ilə bağlıdır. Sosial distansiyanı qorumaq, kursantların sayı on nəfərdən artıq olmamaq şərtilə texniki imkanlar mühazirə və seminarların Təhsil Nazirliyinin təsdiq etdiyi qaydalara uyğun olaraq onlayn şəkildə keçirilməsinə imkan verir.

***“Tədrisin keyfiyyəti müəllimin hazırlığından asılıdır. Hər il Akademiyanı əlaçı bitirənlərin sayının artması, professor-müəllim heyətinin öyrətmək üçün fədakarlığı burada təhsilin hansı səviyyədə olmasının bariz nümunəsidir. Kursantların dərslərə hazırlaşması üçün kitabxanalarla yanaşı, müasir tələblərə cavab verən elektron kitabxana da fəaliyyət göstərir. Bu isə onu deməyə əsas verirk ki, bu il də yay semestri başa çatanadək heç bir geriliyə yol vermədən, proqramdakı dərslər müvəffəqiyyətlə keçiriləcəkdir”.***

Onlayn sistem vasitəsilə auditoriyalarda kursantlara nəzarət mexanizminə gəlincə, Akademiya rəisi dedi ki, ötən dövr ərzində ciddi nizam-intizam qaydalarının pozulması hallarına rast gəlinməyib.

Görülən bütün tədbirlər kursantların sağlamlığının qorunmasına yönəldiyindən onların immunitetlərinin gücləndirilməsi diqqət mərkəzindədir. Şəxsi heyətlə işləyən bütün əməkdaşlar qoruyucu vasitələrdən-əlcək və maskadan istifadə edirlər. Zərurət olduğu halda kənardan Akademiyanın ərazisinə daxil olan şəxslər dezinfeksiya edilir, onların hərarətləri yoxlanılır.

“Tibb xidmətinin əməkdaşları tərəfindən hər gün daimi və kursant heyətinin hərarəti ölçülür, bunun üçün xüsusi ayrılmış kitabda qeydiyyat aparılır”.

Akademiyada karantin rejimi tətbiq olunsa da beynəlxalq əlaqələrin güclənməsi üçün müasir texnologiyalar köməyə çatır. Belə ki, müxtəlif mövzuları əhatə edən elmi-praktik konfranslar onlayn şəkildə keçirilir, pofessor-müəllim heyətinin, o cümlədən kursantların dünyanın bir çox ölkəsinə məqalələri, tezisləri göndərilir.




***Şəxsi heyət ölkə başçısının “Biz birlikdə güclüyük” çağırışına qoşularaq Xəzər rayonunda ehtiyacı olan aztəminatlı ailələrin köməyinə çatıb, onlara ərzaq yardımı göstərib. Akademiyanın yaşı 65-i keçmiş və bu səbəbdən xidmətdən azad edilmiş mülki işçiləri də diqqətdən kənarda qalmayıb.***

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun karantin rejimi dövründə Akademiya rəhbərliyi ilə mütəmadi olaraq əlaqə saxladığını, şəxsi heyətin sağlıq durumu ilə maraqlandığını deyən polis general-mayoru Nazim Əliyev bu yüksək etimadın şəxsi heyət arasında ruh yüksəkliyinə səbəb olduğunu xüsusi vurğuladı.

İqtisadiyyatı çökdürsə də, qoca-gənc demədən canlar alsa da, bu virusun hardasa bir müsbət təsiri o oldu ki, insanlar biri-birinə gərəkli olduqlarını dərk etdilər. Gücün birlikdə olduğunu öyrəndilər. Elə sıramıza qatılan gənclərin də polis olaraq ilk sınaqları gözəgörünməz düşmənlə mübarizə oldu.

*T.Hafiz*

# VƏTƏNƏ XİDMƏT, DÖVLƏTƏ SADAQƏT

**Dünyanı cənginə alan koronovirus pandemiyasının qarşısının alınması məqsədilə görülmüş qabaqlayıcı tədbirlərin vaxtında, planlı şəkildə həyata keçirilməsi əhalinin sağlamlığının ölkə siyasətinin prioriteti olduğunu bir daha isbatlayır. Dövlət başçımızın bu çətin dönəmdə vətəndaşının təhlükəsizliyi, sosial rifahının təmini istiqamətində atdığı addımlar xalqımız tərəfindən rəğbətlə qarşılanır. Bu isə buyruq qullarını narahat edir.**

Bəzi özünü müxalifət adlandıran və fəaliyyətini qərəzli şəkildə davam etdirən qruplaşmalar xüsusi karantin rejiminin tətbiqi ilə bağlı dezinformasiyalar yayaraq cəmiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Siyasət meydanından boy verə bilməyənlər, idarəçilikdə təcrübəsi olmayan bu şəxslər və onların beş-on tərəfdarı yaxşı bilir ki, artıq onlara heç kim inanmır.

Ölkəmizdə hazırda ictimai-siyasi vəziyyət sabitdir və bu sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər. İctimai proseslər bu gün də müsbət istiqamətdə inkişaf edir, baxmayaraq ki, sosial şəbəkələrdə bəzi antiazərbaycançı şəbəkənin vasitələri erməni dəyirmanına su tökürlər.

Ölkəmizdə vətəndaş cəmiyyəti tam formalaşıb, azad cəmiyyət mövcuddur. Bu gün hər bir vətəndaş dövlət siyasətinə xidmət etməyi özünə borc bilir. Azərbaycan Polisi də bu siyasətdən kənar deyil. Dövlətimizin siyasətinin qayəsini ölkəmizdə əmin-amanlığın təmini, sabitlik, vətəndaşın sosial rifah halının yaxşılaşması və məmnunluğu təşkil edir. Bu əmin-amanlığı, sabitliyi təmin edən Azərbaycan Polisidir. Bəzi özünü müxalifət adlandıran qüvvələr tərəfindən nahaq ittihamlara məruz qalsa da, Azərbaycan Polisi öz andına sadiqdir. Təsadüfi deyil ki, məhz bu gün xalq da öz polisinin yanındadır və polis xalqın güvənc yerinə çevrilib.

Açıq-aşkar görünür və bilinir ki, həmin qüvvələr polisdən qorxurlar. Axı Azərbaycan Polisi ictimai sabitliyin qorunması, qayda-qanunlara riayət olunması və cinayətkarlıqla mübarizə istiqamətində gecəli-gündüzlü xidmət aparır və onların mənfur niyyətlərini həyata keçirmələrinə sədd qoyur.

Xüsusi karantin rejimi ilə əlaqədar səfərbər olan bütün daxili işlər orqanları əməkdaşları bir ali məqsəd-insanları hər hansı bir təhlükədən qorumaq, polis-vətəndaş məmnunluğunu təmin etmək uğrunda mübarizə aparırlar.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Xüsusi karantin rejimində

Respublikanın daxili işlər orqanlarının əməkdaşları tərəfindən həyata keçirilən nəzarət tədbirləri ilə aprelin 15-dən 17-dək olan müddətdə epidemiya əleyhinə rejimi pozan 6 iaşə obyektinin fəaliyyət göstərməsi faktı aşkarlanmışdır. Həmin obyekt sahiblərinin hər biri inzibati cərimə edilmişdir.

Qeyd edilən tarixlərdə respublikanın şəhər və rayonlarında təşkil olunmuş xüsusi polis postlarından, o cümlədən həmin postlardan kənarda olan ara və köməkçi yollardan keçməyə cəhd göstərdiklərinə və karantin rejimini pozduqlarına görə ümumilikdə 8970 nəfərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə tətbiq edilmiş, 23 şəxs isə inzibati qaydada həbs olunmuş, 1 cinayət işi üzrə 1 nəfər şübhəli şəxs qismində tutulmuşdur.

Ümumilikdə isə martın 17-dən aprelin 17-nə qədər xüsusi karantin rejiminin pozulması ilə əlaqədar 9 cinayət işi üzrə 16 nəfər barəsində həbs qətimkan tədbiri seçilmiş, 252 nəfər inzibati həbs edilmiş, 56 871 nəfərə inzibati cərimə tətbiq olunmuş, 482 nəfərə xəbərdarlıq edilmişdir.

Bir daha vətəndaşlarımızı şəxsi gigiyena qaydalarına əməl etməyə, özünütəcrid tədbirlərinə uyğun davranmağa, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağa, digər şəxslərlə minimum kontaktda olmağa, ünsiyyət zamanı 2 metrlik ara məsafəsi saxlamağa və Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tələb və qərarlarına ciddi riayət etməyə çağırırıq.

# POLİS QAYĞIYA EHTİYACI OLANLARA YARDIM ETDİ







**Daxili İşlər Nazirliyinin şəxsi heyəti koronavirus (COVID-19) pandemiyası ilə bağlı ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi dövründə nümunəvi xidmət etməklə yanaşı, köməyə və qayğıya ehtiyacı olanları da unutmur, onlara maddi və mənəvi köməklik göstərir.**

Bu çətin günlərdə hər bir azərbaycanlı kimi "Biz birlikdə güclüyük" şüarını özünə deviz seçən DİN **Baş Mühafizə İdarəsinin Qaradağ Rayon Mühafizə İdarəsinin** əməkdaşları tərəfindən rayon ərazisində maddi dəstəyə ehtiyacı olan, evdən çıxa bilməyən tənha və yaşlı insanlara, eləcə də aztəminatlı, çoxuşaqlı ailələrə yardım edilib. İdarə əməkdaşları ümumilikdə 100 ailəyə baş çəkib, müxtəlif ərzaq və gigiyenik məhsullardan ibarət bağlamaları onlara təqdim ediblər.

**Yasamal Rayon Mühafizə İdarəsinin** əməkdaşları da rayon ərazisində qayğıya ehtiyacı olan 150 ailəyə gündəlik tələbatlarını ödəyəcək müxtəlif ərzaq məhsullarından ibarət sovqatlar paylayıb.

Polisin bu insanpərvər, nəcib addımı Qaradağ və Yasamal rayonlarının sakinləri tərəfindən rəğbət hissi ilə qarşılanıb, onlar göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti başda olmaqla, daxili işlər orqanlarının şəxsi heyətinə minnətdarlıqlarını bildiriblər.

*Anar Qafarov,*
*polis baş leytenantı*

# İcazə xidməti ilə bağlı yenilik

"İcaze.e-gov.az"da yeni xidmət yaradılıb".

Bunu Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov AzTV-də yayımlanan "Hədəf" verilişində deyib.

Qurum rəhbəri bildirib ki, təşkilatlar icazəni portala daxil etdiklərində və ya icazə dayandırılanda bəzən bununla bağlı əməkdaşlarına ya məlumat vermirdilər, ya da bunu unudurdular. Bu isə əlavə problemlərə gətirib çıxarırdı. F.Cəfərov problemin aradan qaldırılması üçün yeni xidmətin yaradıldığını açıqlayıb:

"Belə olan halda həmin əməkdaşlar icazəsinin olmadığını polis postlarında öyrənirdi və cərimlənirdi. Bu olmasın deyə, **icaze.e-gov.az-ı my.gov.az** portalına inteqrasiya etdik. Artıq vətəndaşlar icazə ilə bağlı orada bildiriş alırlar. Əməkdaşlar şəxsi kabinetlərinə daxil olaraq icazəni görə bilirlər. Onlar hətta həmin icazəni yükləyə də bilərlər. Artıq onun üzərində **"Brcode"** və **"QR code"** imkanları da yaradılıb. Daxili İşlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində həmin "QR code"ların xüsusi cihazlar vasitəsilə oxudulmasıyla vətəndaşların daha sürətli şəkildə postları keçməsi təmin olunacaq. Bu, Aprelin 22-dən qüvvəyə minəcək. My.gov.az-a artıq bildirişlər daxil olub, vətəndaşlar bunu görə bilərlər".

# 8103-ə göndərilən SMS-lərin sayı açıqlandı

Xüsusi karantin rejimi dövründə 49 mindən çox təşkilat 758 minə yaxın əməkdaşına icazə alıb.

Ötən müddət ərzində "8103 SMS icazə xidməti"nə 16 milyon SMS göndərilib və 2,8 milyon vətəndaşımız bu xidmətdən istifadə edib. Gün ərzində orta hesabla sistem 1 milyona yaxın SMS qəbul edir. Onlardan 72 faizinə müsbət cavab verilib. Gələn SMS-lərin 17-18 faizi neqativ cavablandırılıb. Bu isə SMS-in təkrar göndərilməsi və formata uyğun olmamasıyla əlaqədardır. Ən çox istifadə olunan gün ərzində bir dəfə olmaqla iki saatlıq icazədir ki, onu 2 kodunu yığmaqla almaq mümkündür.

# Vaxtı səmərəli keçirmək üçün – 7 məsləhət

Fövqəladə vəziyyət və karantin rejimi dövründə evdə keçirəcəyimiz boş vaxtı da səmərəli dəyərləndirmək mümkündür.

**Kitablar**

Əlavə bilik əldə etmək, dünyagörüşünü artırmaq, asudə vaxtınızı dəyərləndirmək üçün mütaliə ən yaxşı vasitələrdən biridir.

**İdman**

Sağlam həyat tərzini ev şəraitində də davam etdirmək olar. Bunun üçün vitaminli qidaların qəbuluna, yağlı, şirin və duzlu təamlardan imtinaya xüsusi fikir vermək lazımdır.

**Film və serial izləmək**

Bura həm tarixi, həm romantik, həm də avtobioqrafik ekran əsərləri daxil ola bilər. Müxtəlif mükafatlara layiq görülmüş maraqlı filmləri izləmək üçün əla fürsətdir.

**Öyrənmə**

Müxtəlif internet resurslarından istifadə edərək master-klaslardan, kurslardan yararlana bilərsiniz. Bura uşaq psixologiyasından tutmuş yemək reseptlərinədək hər şey daxildir.

**Yaradıcılıq**

Uzun müddətdir rəssamlığa həvəsiniz olub, ancaq rəsm çəkməyə vaxt tapmamısınız? Elə isə əsl vaxtıdır. Bunun üçün köməyə yenə də "Youtube" kanalı çatır. Rəssamlıqla yanaşı, toxuculuq, dizaynerliklə bağlı faydalı məlumatları öyrənə bilərsiniz.

**Ailə ilə vaxt keçirmək**

Karantin müddətində ailə üzvlərinizlə, xüsusilədə uşaqlarla vaxt keçirmək onların psixologiyasına müsbət təsir edir.

**Yoqa**

Ruhən dincəlməyiniz üçün motivasiyaedici məşğuliyyətdən biri də yoqadır.

# 170 min icazə ləğv edildi

"Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" üzrə qeydə alınmış məlumatların növbəti dəfə təhlili zamanı müəyyən edilib ki, bəzi hüquqi və fiziki şəxslər öncə 8, sonra isə 11 aprel tarixində edilmiş xəbərdarlıqlardan nəticə çıxararaq əsassız və lüzumsuz olan icazələri icaze.e-gov.az portalından silib. Bu barədə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Eyni zamanda geri qaytarılan icazələrdə heç bir redaktə aparmayan, əmək müqaviləsi olmayan, icazələri xidməti müqavilə olaraq sistemdə təsdiq etməyən təşkilatların icazələri ilə birlikdə isə, ümumilikdə 170 000-dək icazə isə avtomatik rejimdə ləğv olunub.

Əməkdaşlar üçün icazənin alınması ilə bağlı 48 332 dövlət və özəl təşkilat, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən icaze.e-gov.az portalı vasitəsi ilə 692 187 icazə qeydiyyata alınıb və hazırda həmin icazələr aktivdir.

# Polislər üçün şəffaf maskalar hazırlanıb



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəstəyi ilə "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin rezidenti olan "Sumaks Technologies" şirkəti tərəfindən ilkin olaraq 2000 ədəd şəffaf maska (üz sipəri) hazırlanıb.

İnsan həyatı üçün təhlükəsiz və ekoloji təmiz məhsul olan bu maskalar xüsusi 3D printer vasitəsi ilə hazırlanır və hava-damcı yolu ilə yayılan infeksiyalara qarşı müdafiə rolunu oynayır.

Bu maskalarla ilk olaraq COVID-19 pandemiyasına qarşı mübarizə ilə əlaqədar vəzifə tələbinə uyğun olaraq kütləvi tamasda olan polis və jurnalistlər təmin olunacaqlar.

Eyni zamanda açıq satışda olacaq maskalar birdəfəlik deyil, bir neçə dəfə istifadə oluna bilər.

*C.Natiq*

# CÜZDANINI İTİRMİŞDİ...

**Bu günlərdə metronun "Xalqlar dostluğu" stansiyasından üzü "Koroğlu" stansiyasına gedən "62" saylı marşrutda içərisində 1 ədəd açar, 366 manat, 4 bank, 1 metro və 2 digər plastik kart olan pulqabını naməlum şəraitdə itirən Fərqanə Abuşova kömək üçün polisə üz tutub.** Polis əməkdaşlarına müraciət edən xanımı asayiş keşikçiləri tezliklə sevindirib. Belə ki, "Xalqlar dostluğu" stansiyasının yaxınlığında patrul xidməti aparan Metropolitendə Polis Şöbəsinin əməkdaşları onlara edilən müraciətdən sonra "Koroğlu" stansiyasındakı həmkarlarına bu barədə məlumat veriblər. Stansiyada xidmətdə olan polis serjantı Vüqar Cavadov həmin marşrutda cüzdanı taparaq Şöbənin rəhbərliyinə məruzə edib.

Elə həmin gün axşam saatlarında F.Abuşova rəhbərlik tərəfindən şöbəyə dəvət olunub və itirdiyi 1 ədəd




açar, 366 manat, 4 bank, 1 metro və 2 digər plastik kart ona qaytarılıb. Vətəndaş F.Abuşova asayiş keşikçilərinə minnətdarlığını ifadə edib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# "MÜBARİZ KEŞİKDƏ"yə...

**Nərimanov rayon sakini Turan Ziyadxanlının redaksiyamıza göndərdiyi bu məktub diqqətimizi çəkdi. Polisi sevdirən, insanlar arasında ona rəğbət, nüfuz qazandıran, məktubda adı çəkilməyən həmkarımıza isə təşəkkürümüzü bildiririk.**

"Qonşumuz polisdir. Səmimi insan olduğuna görə böyükdən-kiçiyə hamı ona hörmətlə yanaşır. Mən də onun xətrini çox istəyirəm.

Üzündən-gözündən təbəssüm heç vaxt əskik olmur. Eşitdiyi hər xoş xəbərə, hamının uğuruna sevinir. Çalışır ki, hər bir işdə insanlara, xüsusən gənclərə kömək olsun, onlara həyatda düzgün seçim etməyə istiqamət versin. Orta məktəbi bitirdikdən sonra mənə və bacıma ali məktəb seçməkdə məsləhət verən, ixtisas kodlaşmasını aparmaqda yaxından köməklik göstərən də o olmuşdu. İşdən yorğun gəlsə də, bu məsələni vacib sayıb yardıma tələsmişdi. Özü də təmənnasız, minnətsiz...

Zehinlərin, əhvalların pessimizmə təslim olduğu belə bir zamanda onun pozitivliyi bizlərə də təsir edir, ruhdan düşməyə qoymur.

Məni bu məktubu yazmağa vadar edən bir başqa səbəbdir.

Tətbiq edilən karantin rejimi ilə bağlı küçələrdən, həyət-bacadan əl-ayaq çəkilib. Elə bu günlərdə POLİS qonşumla rastlaşdım. Çoxdandır görmədiyimdən qucaqlamaq istədim. O isə şəhadət barmağını zarafatla mənə tuşlayıb dedi:

-"Sosial məsafəni saxla". Sonra gülə-gülə əlini çiynimə vurub: "Möhkəm ol, belə lazımdır", - deyib pərtliyimi aradan qaldırmağa çalışdı. Mən də onun dediklərini tam doğru hesab edib, gülə-gülə "baş üstə" cavabını verdim. Birdən gözüm əlindəki politilen torbanın üstündəki yazıya sataşdı və gülümsəyərək soruşdum:

-Deyəsən, daha bu marketdən bazarlıq etmirsiniz?

Cavabı qısa oldu: "Hə, bu marketi işlədənlər insanlıqdan uzaq imişlər. Neçə gündür yuxarı dayanacağın yanındakı marketdən alış-veriş edirəm. Ordakılar yaxşı adamlardır"...

Sağollaşıb, ayrıldıq. Axşam atama qonşumuzu gördüyümü, ona salam yolladığını dedim. Sözarası yaxınlıqdakı marketin işçilərindən narazı qaldığını, yuxarıdakı marketdən alış-veriş etdiyini bildirdim. Anam da qonşuların o marketi tərifədiklərini dedi.

Ertəsi gün mən də yolumu həmin marketdən saldım. Lazım olan ərzaqları götürüb kassaya yaxınlaşdım. Birdən gözüm yaxınlıqdakı zənbilə və üzərinə yapışdırılmış vərəqdəki yazıya sataşdı: "Ehtiyacı olanlar! Bunu qardaşınız sizin üçün saxlayıb, götürün, halal xoşunuz olsun!"

Gözlərim dolmuşdu. Aldıqlarımın ödənişini etdikdən sonra kassadakı xanıma: "Çox nəcib addımdır, gözəl fikirləşmisiniz", - deyib zənbilimdən bir çörək və qızım üçün aldığım iki peçenye qutusundan birini götürüb ora qoydum.

"Biz fikirləşməmişik, üç-dörd gündür səhər tezdən mağaza açılan kimi bir polis gəlir, 10 dənə çörək alıb zənbilə qoyur. Yazını da özü çap edib gətirib".

İlk ağlıma Polis qonşum gəldi. Təxmini yaşını dedim, xarici görünüşünü təsvir etdim. Gözlədiyim cavabı aldığıma, zənnimdə yanılmadığıma, həm də o insanın öz böyüklüyünün təsdiqinə sevindim. Özümü saxlaya bilməyib "tanıyıram, qonşumuzdur", - dedim.

"Hamımızdan xahiş etmişdi ki, heç kəs bunu bilməsin. Amma, niyə də bilməsinlər? Deyir, aşağı dayanacağın yanındakı marketdə də belə bir zənbil qoyubmuş. Kassada işləyən qızlardan biri ona deyib ki, o gedəndən sonra müdir həmin malları qaytarıb yerinə düzdürür. Özü də deyirmiş ki, o polisdir, pulu çoxdur, qoy bir az xərcləsin. Sonradan bizim mağazaya gəlib müdiriyyətlə danışıb. O da sağ olsun, bu işi bizə həvalə edib. Biz də çörəkdən tutmuş bir çox gündəlik istifadə edilən ərzaq məhsullarını o zənbilə qoyub, az da olsa camaata dəstək oluruq. Müştərilərimiz də çoxalıb, əksəriyyəti də çalışır ki, zənbilə nəsə qoysun.

İndi anladım ki, qonşumun dediyi "insanlıqdan uzaq" fikri nə deməkmiş.

Həm də bu çətin günlərdə bir daha şahidi oldum ki, hər bir polis əməkdaşı Vətən sevdalı, mərhəmətli, ürəyin sahibidir.

Bu gün Polisimiz dövlətimizin, xalqımızın, təhlükəsizliyini qoruyur, insanlara qayğısını əsirgəmir, cəmiyyətin gələcəyini düşünür. Onlardan birini isə mən şəxsən tanıyıram: "O, BİZİM QONŞUMUZ"dur!

# BUMERANQ

*(hekayə)*

Rəşad ailənin ilki idi. Nə az, nə çox düz beş ildən sonra dünyaya gəlmişdi. Gəlişiylə nəinki valideynlərinə, bütün qohumlara da sevinc bəxş etmişdi. Bu səbəbdən onu əzizləyə-əzizləyə böyüdürdülər. Elə qohumların da ona göstərdiyi istək nisbətən fərqliydi.

İllər yel qanadlı oldu, Rəşad orta məktəbi bitirdi. Amma onu ali təhsilli görmək valideynlərinin ürəyində elə arzu kimi də qaldı.

Tay-tuşları ali məktəblərə daxil oldu. Əsgərlik vaxtı çatana qədər kimsə xətrinə dəymədi, bir işə buyurmadılar, əziyyət çəkməyə qoymadılar. Rəşad valideynlərinə kömək etmək bir tərəfə, heç əlini ağdan-qaraya vurmaq istəmirdi.

Evə gec və hərdən sərxoş gəlməsi atasının səbrini daşırsa da anası: "Üz vurma, uşaq onsuz da bu gün-sabah əsgərliyə gedəcək, qoy bir az dincəlsin",- deyirdi.

Hərbi hissələrin birində xidmətini başa vurub qayıtdı. Yaşlanmış ata-anasına kömək etmək, iş-güc sahibi olmaq əvəzinə evə tez-tez sərxoş gəlir, bəzən danışığına və hərəkətlərinə nəzarəti də itirirdi. Atası özünü görməzliyə vursa da, anası danlayanda: "Bir bakal pivə içmişəm, dünya dağılmayıb ki",-deyib canını qurtarırdı.

Atasından istəməyə üzü gəlməsə də hər gün anasından "cibxərcliyi" alar və axşamı evə qəpiksiz dönərdi. Son vaxtlar evə sərxoş gəlməsə də qeyri-adi hərəkətləri və davranışıyla diqqəti çəkirdi.

Dediyinə görə bir neçə ay əvvəl aldığı bahalı telefonunu hardasa itirmişdi və yenisini almaq istədiyini ilk olaraq balaca qardaşına bildirmişdi.

Bu telefon itirmək söhbəti də növbəti bəhanə idi…

Avtomobil dayanacağında gecə gözətçisi işləyən Camalın Qafur kişiyə Rəşadın "pis uşaqlar"la oturub-durduğunu, hər axşam qonşu binanın zirzəmisinə toplaşdıqlarını, oradan çıxanda özlərini qəribə aparararaq səs-küy saldıqlarını, qeyri-adi hərəkətlər edib danışıqlarına nəzarət edə bilməmələrini deməsi fırtınadan əvvəlki səssizlikdən xəbər verirdi.

Halal zəhmətlə qazandığı pullarla böyütdüyü, halal çörək yedirtdiyi övladı barəsində belə utanc-verici xəbərlər onu məyus etmişdi. Odur ki, söhbəti əvvəlcə ömür-gün yoldaşına açıb, sonra baş verənlər barədə Rəşadla ayrıca danışmaq qərarına gəldi…

Axşam evə gələndə kişiyə "bıçaq vursaydın qanı çıxmazdı". Əl-üzünü yuyub süfrəyə otursa da boğazından bir tikə çörək keçmədi. Dinməyə, danışmağa heyi belə yox idi.

Qonuda-qonşuda, məhəllədə danışılanları arvadına deyəndə Pərini sanki ildırım vurdu. Otağa dərin bir sükut çökdü. İyirmi il böyük ümidlərlə böyüdüb boslədikləri uşaq, deyəsən, "yolunu azmışdı".

Rəşadın narkotik maddə istifadə etməsi onun davranışından, hərəkətlərindən aşkar duyulsa da zavallı valideynlər bunu anlamamışdılar.

"Dar gün"ün dostlarının əhatəsində xoş saatlar yaşayan Rəşadı nə valideynlərin əziyyətli həyatı, nə ailənin maddi durumu, nə də özünün taleyi maraqlandırmırdı. O, valideynlərinin verdiyi cibxərcliyinə narkotik alır, yeri gələndə, dostların da etdikləri "yaxşılıqların" əvəzini qaytarırdı…

Dostlar daha imkanlı "dost" axtarışında idilər, ən imkanlı və səxavətli dostları-Ağasif xaricə köçmüşdü. Rəşad da artıq "köhnəlmişdi".

Dostlar "şənlənmək" üçün pul tapa bilmirdilər. Nə borc almağa, nə də aldatmağa adam da qalmamışdı. "Malı" isə nisyə vermirdilər...

Hər axşam yığışdıqları çayxanada çıxış yolu kimi hərə bir təklif irəli sürdü. Birdən onlardan biri qəfl ayağa qalxıb yanındakına: "Dur, getdik",-dedi. Təxminən yarım saatdan sonra "qoçaqlar" qayıtdılar. Əlidolu gəlmişdilər. Üzlərindəki sevinclə yanaşı, bir qorxu-həyəcan hissi də vardı. Gərginlik içindəydilər…

Çayxanadan çıxıb həmişəki yerlərinə, qarşı binanın zirzəmisinə üz tutdular…

Qafur kişinin evə bu qədər gec gəlməsi Pərini narahat edirdi. Öz-özünə: "Kişi heç bu vaxta qalmazdı",- deyib biz az da qarasınca danışdı.

-Ay qız, yəqin atan yazıq yenə tıxaclarda qalıb, bir zəng vur görək hardadır?

-Ana, atam telefona cavab vermir, bir azdan yenə yığaram,- deyə qızcığaz cavab verdi.

Birdən qızının: "Ana, atam zəng edir",- deməsi ilə xəttin o başından gələn qadın səsi bütün otağa yayıldı.

-Alo, salam, Qafur kişinin ailəsindəndir? "Təcili yardım"dan sizi narahat edirik. Xanım, qorxmayın, bu telefonun sahibi həyatı təhlükə olmayan kiçik bir xəsarət alıb. Xəstəxanaya aparırıq. Yenə deyirəm, qorxulu bir şey yoxdur.

Rəşadın telefonuna isə həmişəki kimi zəng çatmırdı. Pəri arvad kiçik oğlu Nicatla xəstəxanaya gələndə məlum oldu ki, Qafur kişi reanimasiyadadır. Həkimlər dedilər ki, xəstənin baş nahiyəsinə küt alətlə bir neçə dəfə zərbə endirilib və o, müxtəlif dərəcəli xəsarətlər, o cümlədən ağır kəllə-beyin travması alıb…

Səhərəyaxın evə gələn Rəşadın ağlı-huşu özündə deyildi. Baş verənləri ona danışmağın isə heç bir mənası yox idi. Atasının xəstəxanada olmasından xəbər tutanda gün batmaq üzrə idi.

Xəstəxanaya gələndə bir nəfərin atasını sorğu-suala tutduğunu gördü və yəqin etdi ki, polis əməkdaşıdır. Üzünü çevirib bayıra çıxmaq istəyəndə atası arxadan onu səslədi: "Gəl, Rəşad. Bu oğlan polis əməkdaşıdır. Hadisə barədə məndən izahat alır". Polis deyəndə Rəşad rəng verib, rəng aldı. Oğlunun onun dar günündə yanına gəlməsi atasını həm sevindirmişdi, həm də qürrələndirmişdi.

Qafur kişi baş verənlər barədə oğlunun yanında danışmaq istəməməsini polis əməkdaşının qulağına pıçıldadı. Polis etiraz etməyərək Rəşaddan bir neçə dəqiqəlik bayıra çıxmasını xahiş etdi. Rəşad ürəyi döyünə-döyünə bütün varlığı ayaqlarından dəyirman daşı kimi asılıbmış kimi otaqdan çıxdı…

"Axşam işdən qayıdanda qonşu binanın tinində iki nəfər gənc arxadan mənə hücum edərək əllərindəki dəmirlə başıma vurub evə aldığım bazarlığı və cibimdəki pulları götürüb qaçdılar. Yaşlı adamam, müqavimət göstərməyə, ayağa qalxmağa gücüm çatmadı. Deyəsən, narkoman idilər. Ondan sonrası isə yadıma gəlmir. Gözümü açanda təcili tibbi yardım maşınında idim"…

*Hüseyn Xəzər,*
*təqaüddə olan polis mayoru*

**Redaksiyadan:** ***Tanıdığımız, bildiyimiz polis veteranlarına, eləcə də xidmətdə olan həmkarlarımıza "Mübariz keşikdə" vasitəsilə əvvəl də səslənmişik, bu gün də səslənirik. Bu qəzet Sizin tribunanızdır. Buyurun, bizə yazın, fikirlərinizi bölüşün. Sıramıza yeni qoşulan gənclərin təcrübənizə ehtiyacı var. Buna görə də səylərimizi artırmalı, 87 yaşlı "Mübariz keşikdə"mizi daha oxunaqlı etmək naminə gücümüzü birləşdirməliyik. Çünki söz-sözə dayaq, fikir-fikrə arxadır.***

***Gözləyirik...***

# YU NESBÖ

Yu Nesbö 29 mart 1960-cı ildə Oslo şəhərində anadan olub. Anası kitabxanada işlədiyindən gələcək yazıçının ədəbiyyata olan həvəsi erkən yaşlarından başlayıb. Məktəbi bitirdikdən sonra 3 il əsgərlikdə olduğu müddətdə aktiv şəkildə biliklərini təkmilləşdirməklə məşğul olub. Əsgərlikdən tərxis olunduqdan sonra Norveç İqtisadiyyat Məktəbinə qəbul olunub. Yazıçılıq karyerasına başlamazdan öncə jurnalist kimi fəaliyyət göstərib. Nesbö həvəskar alpinistdir. Bundan əlavə, 2008-ci ildə inkişaf etməkdə olan ölkələrdə yaşayan uşaqlara yazıb - oxumağı öyrətməyə kömək etmək məqsədi ilə "Harri Hole" fondunu təsis edib.




Nesbö "Yarasa" adlı ilk romanı ilə Harri Hole haqqında yazılan romanlar seriyasının başlanğıcını qoyub. Avstraliyada yaşadığı müddət ərzində təsirləndiyi hadisələr onu bu əsəri yazmağa ilhamlandırıb. Əsər çap olunduqdan sonra sensasiya yaradır və tənqidçilər tərəfindən "ani bestseller" adlandırılır. Yazıçı "Şüşə açar", "İlin kitabı", "İlin ən yaxşı detektivi" və "Oxucuların seçimi" mükafatlarına layiq görülüb. Onun romanları 50-dən çox dilə tərcümə edilib və 30 milyon nüsxə satılıb. Gərgin, qüsursuz şəkildə qurulmuş intriqa, parlaq xasiyyətlər və hadisələrin gözlənilməz məqamda açılmaları Nesböyə oxucuların rəğbətini qazandırıb.

Yu Nesbö ən çox inspektor Harri Hole haqqında olan romanlar seriyasına görə tanınıb. 2011-ci ildə "Kəllə ovçuları", 2017-ci ildə isə "Qar adamı" romanı əsasında eyniadlı film çəkilmişdir.

Yazıçının yaradıcılığının əsas xüsusiyyəti əsərin baş qəhrəmanının tədqiq edəcəyi hadisələrlə şəxsi taleyinin oxşarlığıdır.

Harri Hole barəsində "Yarasa", "Tarakanlar", "Qızılgərdan", "Nemesis", "Şeytanın ulduzu", "Xilaskar", "Qar adam", "Bəbir", "Kabus", "Polis" və "Yanğı" kimi romanlarla rast gəlmək olar.

Bu romanlar əvvəllər kriminal polis əməkdaşı olan, sonradan isə Milli Cinayətkarlığa Qarşı Mübarizə Xidmətinə keçən Harri Holenin fəaliyyətindən bəhs edir.

Nesbö qəhrəmanının adını belə açıqlayır: "Harri adını uşaqlıqda futbol oynayanda tanıdığı bir futbolçunun adından, Holeni isə uşaq vaxtı nənəsinin onu qorxutduğu polisin adından götürüb".

Bu silsilə romanları oxsanız görəcəksiniz ki, Harri Hole Norveçin paytaxtı Osloda və digər ölkələrdə baş verən cinayət hadisələrinin üstünü açmaq üçün çoxlu səyahətlər edir. Hole seriyalı qatilləri, bank oğrularını və Osloda olan Rusiya mafiyasının üzvlərini tutur, cinayətlərin üstünü açır, vaxtını gecə kabusları ilə mübarizəyə sərf edir. O, vəfat etmiş dostlarından ötrü kədərlənir, çünki onların unudulmaz obrazları ona keçmişi xatırladır. Bu seriyaya daxil olan kitabların çoxunda təhlükədə olan qadın haqda bəhs olunur.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini M.Məmmədov aprelin 18-də rayon ərazisindəki avtoyuma məntəqələrinin birindən "BMW" markalı avtomobilinin qaçırıldığını bildirmişdir.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən paytaxt sakini R.Əhmədov aprelin 19-da A.Cəlilov küçəsində avtomobillə birgə polis əməkdaşları tərəfindən saxlanılmışdır.

*****

Binəqədi RPİ 4-cü PŞ və 6-cı PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 16-da Bakı şəhər sakini E.Yusifovun 230 manatını və mobil telefonunu soyğunçuluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş S.Abbasov saxlanılmışdır.

*****

Göygöl RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 7-də rayon ərazisindəki mağazaların birindən 200 manat və tütün məmulatı, habelə orada quraşdırılmış "e-manat" ödəmə terminalından sındırmaq yolu ilə 2047 manat oğurlamaqda şübhəli bilinən Göygöl şəhər sakini, əvvəllər məhkum olunmuş M.Abbasov saxlanılmışdır.

*****

Beyləqan RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 17-də rayon ərazisindəki mağazaların birindən 1560 manat dəyərində 5 ədəd mobil telefon, 1 ədəd səsgücləndirici və 1 ədəd qulaqcıq oğurlamaqda şübhəli bilinən rayon sakini D.Mürşüdov saxlanılmışdır.

*****

Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini M.Bayramzadə idarə etdiyi "VAZ-2106" markalı avtomobillə saxlanılıb. Baxış zamanı avtomobildən 19 kiloqram 400 qram heroin, 6 kiloqram 315 qram qurudulmuş marixuana, 4 kiloqam 25 qram psixatrop maddə olan metamfetamin aşkar edilərək götürülüb.

## Aprel ayının 15-dən 21-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 136 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 54 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 42, o cümlədən borclu şəxs qismində axtarışda olan 9 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 6 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 6 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 76 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

İnterpol tərəfindən tibbi maska satışı adı ilə 15 milyon avroluq dələduzluq edən şəxslər saxlanılıb.

İnterpolun saytının məlumatına görə, mart ayının ortalarında bir sıra əlaqədar koronavirusun yayılması ilə əlaqədar karantin başlandıqda alman səhiyyə orqanları qoruyucu maskalar almaq üçün Sürix və Hamburqdakı iki satış şirkəti ilə 15 milyon avro dəyərində müqavilə bağlayıblar.

Şirkətlə güclü ticarət əlaqəsi olduğunu deyən şəxs iddia edilən Hollandiya şirkətinin 10 milyon qoruyucu maska verə biləcəyinə dair təminat verib. 1,5 milyon maskanın tədarükü ilə bağlı ilkin ödəmə üçün 1,5 milyon avro dəyərində müqavilə bağlanıb. Alıcılar İrlandiyadakı banka pul köçürməsini başladaraq Hollandiyadakı anbardan Almaniyadakı son təyinat məntəqəsinə maskaların daşınması üçün 52 yük maşını və polis müşayiəti ayırıblar. Lakin çatdırılma tarixindən bir qədər əvvəl alıcılara vəsaitin alınmadığı və malın satış təhlükəsizliyinin təmin olunması üçün Hollandiyadakı təchizatçıya 880 min avro təcili köçürülmənin tələb olunduğu bildirilib. Alıcılar köçürməni etsələr də, maskalar gəlməyib.

Daha sonra həmin adda Holland şirkətinin olduğu ortaya çıxsa da, ancaq onların vebsaytlarına oxşar vebsaytın yaradıldığı məlum olub. Şirkətin rəsmi saytında heç bir sifariş barədə qeyd olmayıb. Alıcılar aldadıldıqlarını anladıqdan dərhal sonra Almaniyadakı bankla əlaqə saxlayıblar. Bank da öz növbəsində İnterpolun Maliyyə Cinayətləri Bölməsi ilə əlaqə quraraq vəsaitləri geri qaytarmaq və pulun hərəkətini izləmək üçün əməkdaşlığa başlayıb.

Banklar, maliyyə kəşfiyyatı bölmələri və məhkəmə orqanları, habelə partnyor təşkilatlar olan Europol və Eurojust da bu məsələ ilə bağlı İnterpolla əməkdaşlıq ediblər.

Hollandiyanın Maliyyə Məlumatı və İstintaq Xidməti alman şirkətindən köçürülmüş 880 min avronun hərəkətini izləyib. Bu vəsaitin təxminən 500 min avrosunun artıq Birləşmiş Krallığa göndərildiyi və Nigeriyadakı bir hesab üçün ayrıldığı aşkarlanıb. Europol bank sektorundakı əlaqələrdən istifadə edərək verilən xəbərdarlıq sayəsində İngiltərə bankından tam məbləği geri alıb. Artıq həmin vəsait Hollandiyaya qaytarılıb və hesabda dondurulub.

Faktla bağlı Niderlandda iki şübhəli şəxs saxlanılıb. Saxlanılanların tibbi avadanlıq sənayesi ilə heç bir əlaqələrinin olmadığı, sadəcə "COVID-19"u fürsət görən təcrübəli fırıldaqçılar olduğu məlum olub.

*****

***Kolumbiyada polislər küçədə tabutla rəqs ediblər. Onlar bununla insanlara koronavirusla bağlı mesaj veriblər. İnsanların koronavirusa yoluxmaması üçün evdə qalmasını təmin etmək istəyən polislər qorunmayacaqları təqdirdə onları acı aqibətin gözlədiyini göstərməyə çalışıblar. Asayiş keşikçiləri "Özünüzün və ailənizin sağlamlığı üçün evdə qalın. Hamımız birimiz, birimiz hamımız üçün", - deyə çağırış ediblər.***

*****

Amerika Birləşmiş Ştatlarında doğum gününə karantin səbəbi ilə kimsənin gəlmədiyi üçün uşağının üzüldüyünü görən ata bu barədə polisə xəbər verib. Polislər çoxsaylı avtomobil kalonları ilə ad günü olacaq uşağın yaşadığı evin qarşısında dayanaraq onun üçün "Ad günün mübarək" mahnısını səsləndiriblər.

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik